Ədəbiyyat QƏZETİ

# Faiq BALABƏYLİ-60



Hörmətli Faiq müəllim!

Sizi - tanınmış şairi 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1971-1981-ci illərdə Cəlilabadın doğma Sabirabad kənd orta məktəbində, 1981-1984-cü illərdə 95 saylı Bakı Dənizçilik Məktəbində oxumusunuz. 1982-1984-cü illərdə keçmiş Sovet ordusu sıralarında hərbi xidmətdə olmusunuz. Hərbi xidməti başa vurduqdan sonra təhsilinizi qiyabi olaraq Qafur Məmmədov adına Bakı Dəniz Yolları Məktəbində davam etdirmisiniz. 1984-cü ildən Xəzər Dəniz Neft Donanmasında əmək fəaliyyətinə başlamış, burada uzunmüddətli, səmərəli xidmət göstərərək, müxtəlif vəzifələrdə çalışmısınız.

2009-2013 cü illərdə ADDA-nın "Gəmi sürücüsü və noviqasiya mühəndisi" fakültəsində təhsil almısız. Hazırda ADXG QSC XDND idarəsində gəmi kapitanı vəzifəsində çalışırsınız. "Dənizçilərə Sosial Dəstək" İctimai Birliyinin təsisçisi və idarə heyətinin sədri olaraq dəniz donanmasının ictimai həyatında müstəsna yeri olan onlarla layihəni gerçəkləşdirmisiniz. Araya-ərsəyə gətirdiyiniz "Gəmilərin əmniyyətli idarəolunması" kitabı Beynəlxalq Dəniz Təşkilatının tələb və tövsiyyələrinə uyğun olaraq Azərbaycan dənizçisinin bilik və təcrübəsinin artırılmasında xüsusi rola malikdir.

Ədəbi ictimaiyyət sizi dənizçi-şair olaraq tanıyır və siz harada çalışmağınızdan asılı olmayaraq, həmişə ədəbi mühitin içində olmuş, yazıb-yaratmısınız.

Siz vətənpərvər bir ziyalı kimi də tanınırsınız. Torpaqlarımızın azadlığı uğrunda hər iki Qarabağ müharibəsində fəal olmusunuz, günlərlə cəbhə xəttində olub reportajlar hazırlamısız. 1990-cı ilin qanlı 20 yanvar faciəsi zamanı dənizçilərimizin rus-sovet hərbi birləşməsinə qarşı apardığı etiraz aksiyasında fəalolaraq dənizçilərin etiraz aksiyasına cəlb olunmasında xidmətləriniz olub. Hadisələrin canlı şahidi kimi "Kəsilməyən həyacan fiti", "Dəryada gəmim qaldı", "Bakı buxtası-20 yanvar" kitabları ilə tariximizin bu səhifəsini olduğu kimi qələmə almısınız.

1996-cı ildən "Ədəbiyyat qəzeti"ndə işləyirsiniz. Eyni zamanda Hazırda "Müstəqil.az" saytının baş redaktorusunuz.

"Eh ayrılıq, nə yamansan" (1993), "Kəsilməyən həyəcan fiti" (2003), " Dəryada gəmim qaldı" (20040,"Sənə yazılan şeirlər" (2005), "Yaşıl yuxulu dəniz" (2010), "Yağışdan sonra" (2019), "Onlar qəhrəmandır" (2021), "Bakı buxtası - 20 yanvar" (2022), "Dənizçilərimiz Vətən müharibəsində" (2022), "Sən Vətənə bənzəyirsən" (2023) və b. kitablarınız gün üzü görüb.

1996-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüsünüz. "Şahmar Əkbərzadə adına Beynəlxalq və bir sıra ictimai ədəbi ödüllərə layiq görülmüsünüz. Qardaş Türkiyədə, Tatarıstanda və b. ölkələrdə keçirilən müxtəlif ədəbi festivallarda iştirak etmişiniz. Prezident mükafatçısısınız.

Hörmətli Faiq müəllim!

Sizi yaradıcılıq uğurlarınız və yubileyinizlə bağlı Mədəniyyət Komitəsi adından bir daha təbrik edir, ən xoş diləklərimizi yetirirəm!

**Azərbaycan Yazıçılar Birliyi**